iki sahil

# Xətai rayonunun nümayəndə heyəti Mersində

Türkiyə Cümhuriyyətinin yaradılmasının 95-ci ildönümü ilə bağlı Mersin Böyükşəhər Bələdiyyəsinin sədri Burhanəttin Koçamazın dəvəti ilə Mersin vilayətində təşkil edilən tədbirlərdə iştirak edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim





Məmmədov, Milli Məclisin deputatı Hüseynbala Mirələmov, Xətai rayon Bələdiyyəsinin sədr əvəzi Əliyar Əliyev və rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pə-







nah İmanov, Azərbaycanın Türkiyədəki səfirliyinin əməkdaşı Elvin Süleymanlıdan ibarət nümayəndə heyəti əvvəlcə Tarsusdakı Heydər Əliyev Parkını ziyarət edib. Ulu Öndərin parkdakı abidəsi önündə Ümummilli Liderin xatirəsi ehtiramla yad edilib.

Görüşdə Azərbaycan-Türkiyə, Mersin, Tarsus-Xətai qardaşlıq əlaqələrindən söz açılıb, Mersin valisi Əli İhsan Suya əlamətdar tarix üçün xüsusi olaraq hazırlanan xatirə hədiyyələri təqdim olunub.

Mersin Şəhər Bələdiyyəsinin sədri Burhanəddin Kocamazla görüşdə isə Azərbaycanda müxtəlif sahələrdə əldə olunan uğurlar haqqında məlumat verilib, Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyi qeyd olunub. Bildirilib ki, Türk dünyasının liderləri, ulu öndərlər Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”, Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamları ilə yaddaşlarda qalan bu qardaşlıq əlaqələri indi də dövlət başçılarımız cənab Rəcəb Tayyib Ərdoğan və cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sentyabrın 15-də Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakının işğaldan azad edilməsinin 100 illiyi ilə əlaqədar Bakıda təşkil edilmiş möhtəşəm paradda iştirak etməsi, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə Türkiyədə möhtəşəm “Star” Neft emalı zavodunun açılış mərasimində iştirak etmələri bunu bir daha sübut edir.





Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinə böyük önəm verən Burhanəddin Kocamaz bir müddət əvvəl Çukurova Bələdiyyələr Birliyinin nümayəndə heyəti ilə Azərbaycanda, işğaldan azad edilmiş Cocuq Mərcanlıda, Xətai rayonunda olmasından, önəmli görüşlər keçirmələrindən danışıb. Sonra Burhanəttin Koçamaza Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Türkiyə Cümhuriyyətinin 95 illiyi kimi tarixi hadisələri əks etdirən hədiyyə təqdim olunub.

Sonra nümayəndə heyətinin üzvləri Tarsus Bələdiyyəsinin sədri Şövkət Canla görüşüblər. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov “Qardaşlaşmış şəhərlər” formatı çərçivəsində Tarsusla Xətai rayonu arasındakı əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayıb.

Sonra nümayəndə heyətinin üzvləri Türkiyə Cümhuriyyətinin yaradılmasının 95-ci ildönümü münasibətilə təşkil edilən möhtəşəm bayram tədbirlərində iştirak ediblər.

Yerli folklor qruplarının çıxışları, müxtəlif müəssisələri təmsil edən qrupların keçidi böyük maraqla izlənilib. Bayram tədbirləri çərçivəsində Türkiyədə ən populyar idman növlərindən biri olan yağlı güləş üzrə yarış keçirilib. Yarışın qaliblərinə mükafatlar verilib.

Səfər çərçivəsində Tarsusun, Mersinin tarixi yerləri, muzeyləri ilə tanışlıq olub, yerli Mədəniyyət Sarayında rəsmi qəbul da təşkil edilib.

**Şəfiqə Dadaşova,**
***“İki sahil”***